Tarix və onun problemləri, №1-2 2009

KAMAL MAHMUDOV
*Lənkəran Universitetinin dissertantı*

# XX ƏSRİN 50-60-CI İLLƏRİNDƏ SSRİ-DƏ SİYASİ SİSTEMİ TƏKMİLLƏŞDİRMƏK CƏHDLƏRİ VƏ AZƏRBAYCAN

1953-cü il mart ayının 5-də otuz ildən artıq Sovet dövlətinə rəhbərlik etmiş Stalin vəfat etdi. Stalinin vəfatı ilə bütöv epoxa başa çatdı. Bu repressiya orqanlarına arxalanan sistemin inkişaf etdiyi və möhkəmləndiyi dövr idi. Bütün ölkədə olduğu kimi Azərbaycanda da sistem siyasətin, iqtisadiyyatın, mədəniyyətin, ideologiyanın bütün sahələrinə sirayət etmişdi.

Stalinin ölümündən sonra SSRİ hansı yolla gedə bilərdi? Stalin dövründəki siyasət davam etdirilə, yaxud da, ümumi siyasi kursu saxlamaqla o bir qədər yumuşaldıla bilərdi. Destalinirasiyaya dönüş də ola bilərdi. Destalinirasiya totalitar rejimin ləğvi demək deyildi. O zaman cəmiyyət bütövlükdə buna hazır deyildir. Söhbət yalnız ilkin təmizlənmədən - represiyaya məruz qalanların azad olunmasından, daha kəskin aqrar problemlərin həllinə dönüşdən, mədəniyyətə ehkamçı məzyiqi zəiflətməkdən gedə bilərdi.

Stalinin vəfatından sonra SSRİ rəhbərliyində ən nüfuzlu siyasi fiqurlar Malenreov, Beriya və Xruşşov oldular. Beriya və Malenkovun yüksək rütbəli hərbiçilər arasında əlaqələri yox idi. Başlıcası isə partiya aparatının mövqeyindən asılı idi. Aparat ona qarşı repressiyaların olmaması şərti ilə rejimin saxlanması istəyirdi. Şərait obyektiv surətdə Xruşşovun xeyrinə təşəkkül tapırdı. (3, 280-286)

N.S.Xruşşov Sov İKP MK katibi kimi nəzarət etdiyi partiya aparatının ali hərbi rəhbərlərin köməyi ilə siyasi rəqivbələrinə stalinizmi bu və ya başqa şəkildə davam etdirməyə çalışan L.P.Beriyaya, Q.M. Malenkova və başqalarına qalib gəldi. 1953-cü ilin sentyabrında Sov İKP MK-nın birinci katibi seçildi. Partiya və cəmiyyət onu yeni lider kimi qəbul edə birlmirdi. N.Ş.Xruşşov Stalinin şəxsiyyətinə pərəstişi məhv etməklə, populyar tədbirlərlə, islahatlarla partiyada və cəmiyyətdə nüfuz qazanmağa çalışırdı.

İctimai tərəqqiyə əngəl olan köhnə siyasi sistemin, bürokratiyanın ifrat cəhətlərini, partiya-təsərrüfat fəallarına qarşı repressiyanı, cəmiyyətdəki vahiməni aradan qaldırmağa cəhdlər göstərildi. Mövcud siyasi sistemin bütün qüsurları yalnız Stalinin şəxsiyyətinə pərəstişin, partiya həyatında «Lenin normalarının» pozulmasının nəticəsi kimi qələmə verilirdi.

Əməli cəhətdən partiya nəzarətindən çıxmış və siyasi sistemə həddindən çox təzyiq gücünə malik olan Daxili İşlər Nazirliyi, onun yerli orqanları nəzarət altına alındı. (2, 384-385)

1956-cı ilin fevralında partiyanın XX qurultayı oldu. Sov İKP XX qurultayı Stalinin şəxsiyyətinə pərəstişin və onun nəticələrinin aradan qaldırılması məsələsini nəzərdən keçirdi. (4, 637) Xruşşov 1956-cı il fevralın 25-də qurultayda çıxış etdi. O repressiyaların vüsətini təsvir edərək partiya – dövlət aparatı əlehinə repressiyaların zərərliyini göstərməyə, fəaliyyətdə olan aparatı repressiyalar qarşısında vahimədən azad etməyə, aparat intizamını möhkəmləndirməyin yeni qeyri- repressiv formaları üçün şərtlər yaratmağa çağırdı. Xruşşov şüurlu surətdə repressiyaların vüstəini kiçildirdi. O zaman xalqın reaksiyası görlənilməz, sarsıntı çox böyük ola bilərdi. O, bilərəkdən Stalinin yaxın əhatəsini, özünün də daxil olduğu silahdaşlarını məsuliyyət altından çıxarırdı. (3, 286)

Sov İKP XX qurultayında «sosialist demokratiyasını genişləndirməklə» sistemi, kollektiv rəhbərliyi, partiyadaxili demokratiyanı, xalqla əlaqəni genişləndirməklə partiyanı daha da möhkəmləndirmək kimi qeyri-real tədbirlər müəyyən olundu. Partiyanın Mərkəzi Komitəsi «Şəxsiyyətə pərəstiş və onun nəticələrini aradan qaldırmaq haqqında» (1956-cı il 30 iyun) qərar qəbul etdi. Stalinizm, şəxsiyyətə pərəstiş tənqid olundu, onun təzahürləri göstərildi, lakin bu hadisəni törədən səbəblər mövcud rejim üçün əlverişli olmadığından açıqlanmadı. Yenə də təkpartiyalı inzibati-amirlik sistemi ədalətli və tarixən özünü doğrultmuş bir sistem kimi qələmə verildi. (2, 384)

Stalinin şəxsiyyətinə pərəstişin tənqidinin ilk mərhələsi çox zidiyyətli idi, mahiyyətinə toxunmadan totalitar rejimin natamam, daha mənfi cəhətlərinin ləğvi prosesi gedirdi. (3, 286)

Partiya və dövlət srukturlarının L.Beriyanın əlaltılarından təmizlənməsi prosesi Azərbaycandan da yan ötmədi.

1953-cü ilin iyulunda Azərbaycan KP MK və Bakı komitəsinin birgə plenumunda partiya və sovet orqanlarının fəaliyyətində ciddi nöqsanların olduğu qeyd olundu. (6, s. 655) 1934-1953-cü illərdə Azərbaycan KP rəhbərlik etmiş M.C.Bağırov ziyankarlıqda, qüsurlu rəhbərlik metodlarına və başqa əməllərdə təqsirkar bilinib vəzifəsindən azad edildi. Bakıda SSRİ Ali Məhkəməsi hərbi kollegiyası tərəfindən M.C.Bağırov mühakimə edilib (1956-cı il 12-26 aprel) ölüm cəzasına məhkum olundu. Onun respublika cəza orqanlarına rəhbərlik etmiş əlaltıları da mühakimə olundu. (2, 385)

Siyasi məhbuslar saxlanılan düşərgələrə rəhbərlik edən İslah Əmək Düşərgələri Baş İdarəsi ləğv edildi. Repressiyaya məruz qalanların işinə yenidən baxılması üçün komissiyalar yaradıldı. (5, 10) Bəraətvermə prosesi başlandı. Repressiyalarda mövcud sistemi deyil, stalinizmi təqsirləndirmək, bu bəladan təmizlənən sovet siyasi sisteminin ədalətli olmasına xalqda inam yaratmaq məqsədilə bu proses mühüm siyasi kampaniya kimi planlaşdırılmışdı. Buna baxmayaraq bəraətvermə prosesi böyük humanist addım idi. Yüzlərlə azərbaycanlının üzərindən «xalq düşməni» damğası götürüldü. Onların ailələrinin, övladlarının məruz qaldığı təqiblərə son qoyuldu, hüquqları bərpa olundu. 1956-cı ildən başlayaraq yüzlərlə dövlət ədəbiyyat və incəsənət xadiminə bəraət verildi.

Bununla belə bəraətvermə prosesində minlərlə siyasi mübarizə, habelə 20-30-cu illərdə apardığı istiqlal mübarizəsi üstə təqib olunaraq xaricə getməyə məcbur olmuş mühacirlərə bəraət verilmədi.

Mövcud təkpartiyalı siyasi sistemdə böyük hakimiyyəti olan partiya rəhbərlərinin şəxsi keyfiyyətlərindən çox şey asılı idi. 1954-ci ildə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə gətirilmiş İmam Mustafayev şəraitdən istifadə edib respublikanın, xalqın vəziyyətini imkan daxilində yaxşılaşdırmağa, onun itib-batmaq təhlükəsində olan milli dəyərlərini qoruyub saxlamağa və inkişaf etdirməyə cəhdlər göstərdi. (2, 385-386) Sənayenin sürətlə inkişafı, yeni iş yerlərinin açılması, kəndli gənclərin Bakıya axını nəticəsində paytaxtın ictimai-iqtisadi həyatında azərbaycanlı kadrların rolu artdı, sosial-siyasi sahədə vəziyyət yeniliyə doğru dəyişməyə başladı, demoqrafik vəziyyət dəyişdi. (1, 153) Bu mərkəzin beynəlmiləl şəhər olan Bakını Azərbaycanın tərkibindən çıxarıb müstəqil inzibati vahid kimi birbaşa Moskvaya tabe etmək planını pozdu. İ.Mustafayevin respublikaya rəhbərlik etdiyi illərdə taxıl, kartof, tərəvəz, meyvə, çay yarpağı istehsalı, mal-qaranın sayı çoxaldı. (2, 387)

İctimai-siyasi ab-havanın mülayimləşməsi şəraitində respublikada Azərbaycan dilinin rəsmi dövlət statusunun təmin olunmasına təşəbbüs edildi. Bu məsələnin mətbuatda açıq müzakirəsi keçirildi. 1956-cı ildə Azərbaycan SSR Ali Soveti 1937-ci ildə qəbul edilmiş Konstitusiyaya respublikada dövlət dilinin Azərbaycan dili olması barədə maddə əlavə etdi.

Rəsmi sənədlərin, kargüzarlıq işlərinin Azərbaycan dilində aparılması üçün konkret tədbirlər görüldü. (1, 153)

Məhkəmə quruculuğu, mülki cinayət və məhkəmə məcəllələrinin qəbulu 1956-cı ilin mayından respublikanın öz ixtiyarına verildi. (2, 385)

Azərbaycan xalqının milli şüurunun, özünü dərketmə ruhunun oynaması, ədəbiyyatda da, incəsənət aləmində də yaradıcılıq, əsl insan azadlığı iqliminin təşəkkülü görünürdü. İctimai hadislərəi tənqidi təhlilə çağıran cəsarətli mövzular meydana çıxırdı. (1, 154)

Respublikanın ictimai-siyasi həyatında mövcud siyasi sistemin əsas prinsipinə-təkpartiyalılığa toxunmadan ictimai təşkilatların, xalq hakimiyyəti orqanlarının fəaliyyətini nisbətən canlandırmaq üçün şərait yaradıldı. (5, 16)

Ölkədə başlanmış destalinizasiya prosesi nəticəsində yaranmış əlverişli şəraitdən istifadə edən Azərbaycan rəhbərliyi respublikanın milli özünəməxsusluğunu qorumağa, ittifaq daxilində iqtisadi müstəqilliyə nail olmağa səy göstərirdi.

50-ci illərin ortalarında siyasi ab-havanın nisbətən yumuşaldılması ilə əlaqədar milli respublikalarda, o cümlədən Azərbaycan SSR-də milli-dirçəliş meylləri mərkəzdə kök salmış sovinizmi çox narahat etmiş onlara qarşı ciddi müqavimət göstərilmişdi. (1, 157) N.S.Xruşşov hakimiyyətdə möhkəmləndikdən, xüsusən 1957-ci ildə Sov İKP MK-nın iyun plenumunda mühafizəkar siyasi rəqiblərini məğlub edib partiyadan və rəhbər vəzifələrdən qovduqdan, orduda və Dövlət Təhlükəsizlik Komitəsində rəhbərliyi təzələdikdən sonra partiya və cəmiyyət üzərində şəxsi amirliyni gücləndirdi. Xruşşov «volyuntarizmi» dövrü başlandı.

1959-cu ildə millətçilikdə günahlandırılan İmam Mustafayev vəzifəsindən azad edildi. Azərbaycan SSR-in təhsil haqqında 1959-cu il qanunua respublikada təhsilin rus dilində aparılmasına geniş imkanlar açan əlavələr edildi. Xalqı qorxutmaq və müti halda saxlamaq üçün mərkəz A.Mikoyan və M.Suslovun təşəbbüsü ilə növbəti dəfə Dağlıq Qarabağ məsələsini ortaya atdı. Məsələ 1960-cı ilin sonlarında Sov İKP MK-da müzakirə olunanda sərhəd dəyişikliklərinin qəsdən mübahisəli ərazilər yaradılmış başqa respublikalarda da arzuedilməz reaksiyalar doğuracağından çəkinən Xruşşov Azərbaycanın hüquqlarını müdafiə etdi. (2, 387-388)

Uğursuz islahatlar, Sov İKP XXII (1961 oktyabr) qurultayında elan etdiyi yaxın gələcəkdə SSRİ-də kommunizm qurulacağı haqqında utopik ideyalar N.S.Xruşşovu cəmiyyətdə və partiyada hörmətdən salmışdı. Hakimiyyəti əldə saxlamaq üçün Xruşşov partiyanı parçalamaq, siyasi məsələlərin həllində təşkilatların birgə fəaliyyətini məhdudlaşdırmaq onların diqqətini təsərrüfat məsələlərinə yönəltmək istədi. Sov İKP MK-nın 1962-ci il noyabr plenumu rəhbər partiya orqanlarının istehsalat prinsipi üzrə yenidən təşkil edilməsini qərara aldı. Azərbaycanda da AKP MK-ya bilavasitə tabe olan sənaye – istehsal, kolxoz- sovxoz istehsalat idarələri, şəhər, dağlıq rayon partiya komitələri təşkil olundu. Xruşşov pratiya və dövlət nəzarətini birləşdirməklə partiyanın nəzarət funksiyalarını da xeyli zəiflətdi. (1, 158-159)

Xruşşovun partiya – təsərrüfat aparatının dəstəyini itirməsi, ziyalıların xeyli hissəsindən aralanması, əhalinin əksəriyyətinin həyat səviyyəsində nəzərə çarpan irəliləyişlərin olmaması islahatların keçirilməsinə öz mənfi təsirini göstərdi.

Ölkədə yaranmış ictimai-siyasi vəziyyəti real qiymətləndirə bilməyən Xruşşov 1964-cü ildə yeni SSRİ Konstitusiyası hazırlamaq haqqında sərəncam verərək islahatçılıq fəaliyyətini fəallaşdırmağa cəhd etdi. (1, 295)

Partiya aparatını zəiflətmək cəhdlərindən narazı qalan ali partiya və təsərrüfat rəhbərləri birləşdilər. Sov İKP MK-nın 1964-cü il 14 oktyabr plenumunda Xruşşov və-

zifəsindən kənar edildi L.İ.Brejnev Sov İKP MK–nın birinci katibi seçildi. Partiya amirliyi yenidən güclənməyə başladı.

Partiya amirliyinin yenidən güclənməsi, xüsusən respublikalara verilmiş bəzi iqtisadi müstəqilliklərin geri alınması Azərbaycan rəhbərliyinin mərkəzə münasibətində müəyyən dəyişikliklərə səbəb oldu. Azərbaycan KP Mk-nın birinci katibi V.Axundov 1965-ci ildə vahid partiya –dövlət nəzarəti sisteminin yenidən xalq və partiya nəzarəti sisteminə bölməyə etiraz edən qüvvələr tərəfində L.İ.Brejnevə qarşı durdu. (2, 391)

Milli dəyərlərə diqqət daha da artdı. Bu işdə 1966-1967-ci illərdə AKP MK katibi işləmiş Şıxəli Qurbanovun önəmli xidməti olmuşdur. Novruz bayramı «Bahar bayramı» adı ilə rəsmi şəkildə qeyd edildi. (1, 159)

Əvvəlki illərdə olduğu kimi bu illərdə də, bütün cəhdlərinə baxmayaraq, imperiya Azərbaycan xalqının azadlıq ideyalarını məhv edə bilməmişdi.

1962-ci il dekabrın 17-də bir çox qabaqcıl ziyallılar Xudu Məmmədov, İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə və b. habelə bəzi vəzifəli şəxslər birləşib gizli «Milli Azadlıq Qərargahı» (MAQ) təşkil etdilər. Onlar liberal vasitələrlə dövlət qurumlarında vəzfəl şəxslərin fəaliyyətini xalqın milli oyanışına yönəltməyə çalışırdılar. (2, 390) MAQ –çılar bir neçə mühüm vəzifəyə azərbaycanlı kadrların təyin edilməsinə nail oldular. (1, 160)

Azadlıq ideyalarının yayıyılmasında Azərbaycanın xarici ölkələrdəki siyasi mühacirləri də az iş görmürdülər. Sovet imperiyasında əzilən xalqların siyasi mühacirələri arasında kommunizmə qarşı qüvvələri birləşdirmək meyl getdikcə artırdı.

1966-cı ilin aprelində Azərbaycanın 1920-ci ildə sovetləşdirildiyi gün kütləvi tədbir keçirməyə çalışan milli ruhlu gənclərin bir qrupu həbsə alınmış və ciddi xəbərdarlıqdan sonra azad edilmişdi.

1968-ci ildən (Çexoslavakiya hadisələrindən sonra) bütün imperiyada ehkamçı ideologiyanın süurlara təzyiqi yenidən güclənməyə başladı. (2, 391)

XX əsrin 50-60-cı illərində SSRİ-nin ictimai-siyasi həyatında böyük dəyişikliklər baş verdi. Bir sıra ümumdemokratik dəyişikliklər edildi. Həyata keçirilən islahatlar nəticəsində müəyyən uğurlar əldə olunsa da bu islahatlar ölkə qarşısında duran taleyüklü məsələləri həll edə bilmədi. Çünki marksizm-leninizim ideologiyasının hakim olduğu bir ölkədə xalqın rəyi nəzərə alınmadan, qeyri-demokratik yolla aparılan islahatlardan digər nəticəni gözləmək də mümkün deyildi.

Partokratik inzibati-amirlik idarə sisteminin bir qədər mülayimləşdirilməsi Azərbaycanda milli oyanışa, azadlıq ideyalarının dirçəlməsinə səbəb oldu. Respublika rəhbərlərinin Azərbaycanın iqtisadi və milli hüquqlarını qorumağa səy göstərilmələri imperiya rəhbərlərini narahat edirdi. Azərbaycan xalqını qorxutmaq, itaətdə saxlamaq üçün mərkəz dəfələrlə sınaqdan keçirdiyi vasitədən, «erməni kartından» istifadə etdi.

Hakim marksizm-leninizm ideologiyasının şüurlara təzyiqinə baxmayaraq ziyalılar tərəfindən təbliq olunan milli-azadlıq ideyaları kommunist ideologiyasının aşındığı bir şəraitdə əhalinin geniş təbəqələri tərəfindən rəğbətlə qarşılanırdı.

## *ƏDƏBİYYAT*

1.Azərbaycan tarixi (7 cilddə) VII cild. Bakı, 2003
2.XX əsr Azərbaycan tarixi. Bakı, 2004
3.Mustafazadə T. Ümumi tarix. IV cild, Bakı, 1998
4.Sov. İKP-nın tarixi. Bakı, 1972
5.Zeynanov İ. Azərbaycanın sosial-iqtisadi inkişafı (XX əsrin II yarısında) Bakı, 2004
6.Очерки истории КП Азербайджана. Баку, 1963

**КАМАЛ МАХМУДОВ**

## ПОПЫТКИ УСОВЕРШЕНСТВОВАНИЕ ПОЛИТИЧЕСКОЙ СИСТЕМЫ В 50-60-Х ГОДАХ В ССР И АЗЕРБАЙДЖАН

После смерти Сталина новое руководство страны начало реформы Делались попытки ликвидировать крайние черты командно - административной системы метавшие развитию общества.

Были расширены права союзных республик.

Республиканское руководство пользуясь оттепелью в стране попыталось по возможности учесть интересы республики в развитии экономики, возрождении и развитии духовных ценностей.

Признаки национального возрождения наблюдавшейся в республике раздражало руководство в Москве.

По указу Москвы руководство в республике было сменено, а армяне вновь выступили с территориальными претензиями в отношении Азербайджана.

Но несмотря на противодействие Москвы, в этот период в Азербайджане наблюдался рост национальных идей.

**KAMAL MAHMUDOV**

## CLN THE FIFTIETH AND SIXTIETH YEARS OF THE XX CENTURY THE EFFORT OF IMPROVEMENT POLITICAL SYSTEM AND AZERBAIJAN IN THE USSR

After decease Stalin the USSR gudance began to reform. Adminimtrative method of institutions aspects wnich is obstacled publıc progress was made om effort to liqnidate. Union Republics rights were broadened a little Republic guidance made use of comparatively soften of political atmosphere made an effort to take into account ethnic interests in progress of economics, in grouth of spiritual values.

İn connection with the ethnic revive prferences intensify Moscows clamps to republic increased, exchanged the officials.

Once more armenians performed with the territory claims. But in spite of the centres clamps in Azerbaijan ethnic reviw tendences were going to increase in this time.

***Rəyçilər: t.e.n.F.Ş.Hüseynov, t.e.d.L.L.Həsənova.***

***Lənkəran Dövlət Universiteti Tarix-Fəlsəfə kafedrasının tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 5)***